

# Dağlar sinəsini verib Günəşə...

Gənc şair Elmar Vüqarlı şeirlərini mənə verəndə diqqətim alıcı quş kimi aşağıdakı misraları tutdu və həmin anda qələmlə yanına iri bir nida işarəsi qoydum. Çünki şair yaşadığımız deyingən həyatın bir parçasını ustalıqla gözlərimizin önünə gətirir:

Əvvəl atamın ölümü,
sonra da uşaqlıq günahlarım,
Qarabağ müharibəsi,
anamın zəhlətökən deyinmələri
bezdirdi məni həyatdan…

Bu həyat parçaları birləşib yeni bir şair obrazı yaradır. Ənənəvi olaraq şair görüntü xatirinə bu şeirdə deyə bilərdi ki, başıma gələnlər və ya ətrafımda baş verənlər məni həyata daha da möhkəm bağladı, iradəmi möhkəmlətdi və sair. Amma şair bu cür sovet realizm metodundan milyon ağac uzaqdır.

Elmar Vüqarlı ədəbi mühitdə qədərincə tanınan və qəbul edilən ciddi bir imza sahibidir. Poeziya artıq bu gün yalançı obrazlılığı, döyüşkənliyi və qəhrəmanlığı qəbul etmir. İnsan hisslərinin necə əzildiyinin, məğlub olduğunun tərəfində dayanır. Poeziyanın əsl işi, məramı elə buradan başlayır.

Elmar Vüqarlı ədəbiyyatda öz səciyyəsini yaradan şairdir. Şair var ki, nə qədər oxuyursan, heç bir səciyyə daşımır. Kiminsə üslubunda özünə yer tutur, boz-bulanıq su kimidir. Nə qədər baxırsan, heç nə görə bilmirsən, nə rəngi var, nə də dadı. Və nəticədə həmin imzanı birdəfəlik unudursan, çünki o özünü ədəbiyyata (oxucuya) nişan verməmişdir. Yuxarıdakı şeirinin yanına qoyduğum nida isə artıq Elmarın şair səciyyəsini müəyyən edən bir işarə idi.

Elmar Gəncədə yaşayır. Amma iş yeri Daşkəsən rayonundadır. Mən deyərdim ki, Gəncə-Daşkəsən arasındakı dolama dağ yolları onun yazı və oxu dəftəridir. Yolların kənarına, ağacların yarpaqlarına nə qədər şeir yazılıb, sadəcə, cəld bir şəkildə şeirləri budaqlardan dərmək lazımdır. Bunun üçün ustalıq və peşəkarlıq vacib şərtdir. Çünki maşın bu yolları sürətlə gedir, bir az geciksən, "meyvələri" itirə bilərsən. Ona görə də fikrin sürətinə güvənmək lazımdır. Bu mənada, mən Elmar haqqında

fikrimə, daha doğrusu, “səciyyəli” sözünün yanına bir “düşüncəli” sözünü də yazıram. “Elmar düşüncələr şairidir” desəm, fikrim düppədüz yerinə oturar. Aşağıdakı misralara baxaq:

> Yuxuya dalıb bu şəhər
> Gecənin mürgüləyən həzinliyində.

Bu xoşbəxt şəhər haradır, deyə bilmərəm, amma gör şəhəri xoşbəxt eləyən nə qədər səbəblər var. Əvvəla, şəhər xəyala dalmayıb, yuxuya gedib, “dalmaq” sözündə yatmaq yox, anlamaq, dərk etmək, öyrənmək ştrixləri çoxdur. Ona görə ki, gecə həzindir və özü də bu həzinlik mürgüləyən həzinlikdir. Şair göstərir ki, gecənin yuxulayan həzinliyində şəhər (əslində adamlar) dünya dərkinə vaqif olub. Allahın həqiqətini dərk etməyə başlayıb.

Elmar Vüqarlının şeirlərində detal var, yəni o, şeirlərini detallar, təfərrüatlar üzərində ustalıqla qurur və oxucunun hisslərinə təsir edir, onu heyrətləndirə bilir. Şair bir topa paslı açara ictimai məna verir, hətta o paslı açarların içində Qarabağda qoyub gəldiyimiz evlərin də açarı var. Görəsən, mənzilləri aça biləcəyikmi?



Şair şeiri bir az da siyasiləşdirir: Axı açarlar pas atıb.

> O paslı açarların arasında
> Qarabağda qoyub gəldiyimiz
> mənzillərin də açarları var...

Elmar Vüqarlı nədən yazırsa-yazsın, həmişə ən xırda detalda belə ictimai məzmunu önə çəkir. Şair Qarabağı dünyanın dərdi kimi qələmə verir. Nə varsa, dünyanındı, dünyadan kənarda heç nə yoxdur, – deyir. Bu cür bəşəri duyğularla yaşayan şair də dünyanındır. O, dünyəvi düşüncələrini ustalıqla sərgiləyir.

Elmar Vüqarlının aşağıdakı şeiri məni öz kəndimizə apardı, uşaqlığımla üz-üzə qoydu. Deyirlər, əgər bir şeir oxucuya nəyisə xatırladırsa, deməli, o şeir gözəl şeirdir. Şeirə diqqət yetirək:

> Dağlar sinəsini verib günəşə,
> Qışın ayazını atır canından.
> Səsini başına atmış bir kəndli
> İnəyin çıxarda bilmir damından.
>
> Düşüncəm tərtəmiz, qəlbimdə sevinc.
> Baxıram səmanın dərinliyinə.
> Kəndlinin dilində tənəli söyünc
> Qarışıb baharın həzinliyinə.

Bu şeirlə Abbas Səhhətin “Bir yay səhəri” şeiri mənim nəzərimdə yanaşı dayanır. İnəyini damdan çıxara bilməyən o kişini, məncə, hamı yaxşı tanıyır. O söyüş bir yaz səhərində baharın həzinliyinə qarışa bilirsə, dünya nə qədər gözəl imiş, İlahi. Deməli, müharibə yox imiş, deməli, kəndin üzərindəki barıt tüstüləri deyilmiş, bacalardan çıxan ocaq tüstüləri imiş, Allahım. Şairin təqdim elədiyi bu kənd hamımızın kəndidir. Hətta açarları pas atan Qarabağdakı evlərimizdir. Bu elə bir xoşbəxt kənddir ki, onun ətrafındakı dağlar sinəsini günəşə verib. Qışın ayazını canından çıxarır. Deməli, artıq bahar gəlib...

**Qəşəm NƏCƏFZADƏ**